**Beynəlxalq Metafizika Mərkəzi**
**Metafizika jurnalı**
**2021, cild 4, say 1, sıra 13**

**DOI 10.29228/metafizika.**
**ISSN 2616-6879 (Print)**
**ISSN 2617-751X (Online)**

УДК 323.
КВТ 66.7
http://dx.doi.org/10.29228/metafizika.31

*Səməd BAYRAMZADƏ[*]*
*(Azərbaycan)*

*AMEA, Şərqşünaslıq İnstitutu*

# Cənubi Azərbaycan milli-demokratik hərəkatında Ənuşirəvan İbrahimi siması

***Xülasə***

*Rza xan İranda hakimiyyəti ələ aldıqdan və istibdad rejimini bərqərar etdikdən sonra (1925-ci il) bütün ölkəni milli fəallara və kommunistlərə qarşı siyasi təzyiqlər dalğası bürüyür, onların kütləvi həbsləri başlayır və bu dalğa Qəni İbrahimidən də yan keçmir. O da digər həmməslәkləri sırasında həbs olunur, zindanda ağır işgəncələrə məruz qalır, sonunda uzun bir müddətə - ömrünün sonuna kimi Nəhavəndə sürgün olunur.*

*Qəni İbrahiminin də ailəsində doğulub boya-başa çatan iki oğul və üç qız övladı onun milli-azadlıq və inqilabçı ruhu ilə qidalanmışdılar. Ailənin böyük oğlu Firudin İbrahimi yeniyetməlik illərində və Tehran Universitetinin hüquq fakültəsində oxuduğu dövrdə milli ruhlu bir Azərbaycan mübarizi kimi yetişdi, 21 Azər hərəkatının çox mətin və dönməz bir fədaisi oldu, Azərbaycan Demokrat Firqəsinin, Milli Məclisinin və Milli Hökumətinin qurulması və fəaliyyətində yaxından, bütün varlığı ilə iştirak etdi, bu yolda da canını fəda edərək şəhidlik zirvəsinə ucaldı, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.*

---

[*] AMEA, "Şərqşünaslıq" İnstitutu, "Cənubi Azərbaycan" şöbəsi, dosent, tarix üzrə fəlsəfə doktoru.
e-mail: samad.bayramzadeh@gmail.com
https://orcid.org/0000-0001-6933-7021

*Ailənin üçüncü övladı olan Ənuşirəvan da atası Qəni və böyük qardaşı Firudin kimi mübarizə meydanına gəldi, uzun illər vətəninin azadlığı və müstəqilliyi uğrunda mübarizə apardı və sonunda da atası və qardaşı kimi bu yolda canını fəda etdi.*

***Açar sözlər**: Azərbaycan Demokrat Firqəsi, Pişəvəri, Ənuşirəvan İbrahimi, Firidun İbrahimi, Azərbaycan Milli Hökuməti*

## *Giriş*

Ənuşirəvan İbrahimi 1926-cı ilin may ayının 12-də İran Astarasında dünyaya gəlmişdir. Ənuşirəvanın atası Qəni İbrahimi Türkmənistandan tutmuş Qafqaz məntəqəsindəki şəhərlərə İran malları göndərən və oradan da İrana Rusiya mənşəli mallar gətirən təcrübəli tacirlərdən, eləcə də dövrünün tanınmış şəxsiyyətlərindən olan Mirzə Ağabalanın 5 övladından biri olmuşdur. Qəni İbrahimi ana dili olan Azərbaycan türkcəsindən başqa fars, ərəb, rus və fransız dillərində sərbəst danışa, yaza və oxuya bilirdi. O, Astara şəhərində ən savadlı adamlardan biri olmaqla yanaşı müstəqil fikir sahibi və eyni zamanda da dərin mütaliə qabiliyyətinə malik bir insan idi.

Atası Mirzə Ağabala ilə birlikdə uzun müddət Bakıda və Qafqazın bir çox şəhərlərində olmuş Qəni Bakıda Sosial-Demokrat partiyasının üzvləri, inqilabçı və mübariz insanlarla daha yaxından tanış olur, onların amal, hədəf və siyasi-ictimai platformalarını özününkü hesab edərək onlara qoşulur və Rusiyada baş verən Oktyabr inqilabından sonra Astara və onun ətrafındakı əhali arasında təbliğat və təşviqat işi ilə məşğul olur, İranda "Ədalət" partiyasının təşkilindən sonra ona qoşulur, 1920-ci ilin iyun ayında "Ədalət" partiyasının Ənzəli şəhərində keçirilən 1-ci qurultayında həmin partiyanın İran Kommunist partiyasına çevrildiyi elan olunduqdan sonra Qəni İbrahimi də bu partiyanın ən fəal üzvlərindən birinə çevrilir.

Rza xan İranda hakimiyyəti ələ aldıqdan və istibdad rejimini bərqərar etdikdən sonra (1925-ci il) bütün ölkəni milli fəallara və kommunistlərə qarşı siyasi təzyiqlər dalğası bürüyür, onların kütləvi həbsləri başlayır və bu dalğa Qəni İbrahimidən də yan keçmir. O da digər həmməsləkləri sırasında həbs olunur, zindanda ağır işgəncələrə məruz qalır, sonunda uzun bir müddətə - ömrünün sonuna kimi Nəhavəndə sürgün olunur.

 DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

Qəni İbrahiminin də ailəsində doğulub boya-başa çatan iki oğul və üç qız övladı onun milli-azadlıq və inqilabçı ruhu ilə qidalanmışdılar. Ailənin böyük oğlu Firudin İbrahimi yeniyetməlik illərində və Tehran Universitetinin hüquq fakültəsində oxuduğu dövrdə milli ruhlu bir Azərbaycan mübarizi kimi yetişdi, 21 Azər hərəkatının çox mətin və dönməz bir fədaisi oldu, Azərbaycan Demokrat Firqəsinin, Milli Məclisinin və Milli Hökumətinin qurulması və fəaliyyətində yaxından, bütün varlığı ilə iştirak etdi, bu yolda da canını fəda edərək şəhidlik zirvəsinə ucaldı, Azərbaycanın Milli Qrəmanı adına layiq görüldü.

Ailənin üçüncü övladı olan Ənuşirəvan da atası Qəni və böyük qardaşı Firudin kimi mübarizə meydanına gəldi, uzun illər vətəninin azadlığı və müstəqilliyi uğrunda mübarizə apardı və sonunda da atası və qardaşı kimi bu yolda canını fəda etdi.

## *Ənuşirəvan İbrahiminin təhsil və gənclik illəri*

Ənuşirəvan İbrahimi ibtidai təhsilə doğulduğu Astara şəhərində başlmışdır, amma atası Nəhavənd şəhərinə sürgünə göndərildiyindən ibtidai təhsilini də orada davam etdirməli olur. Sürgün həyatı keçirən və tanınmış inqilabçı ailəsində böyüyüb cəsur və qorxmaz gənc kimi yetişən Ənuşirəvan tərəfindən buraxılaca biləcək kiçik bir səhv onun həyatını acı bir cəhənnəmə çevirə biləcəyi qorxusu atasını daima narahat edirdi və o üzdən də Azərbaycanda 21 Azər hərəkatı qalib gəldikdən, burada Milli Hökumət qurulduqdan və Firudin İbrahimi də bu hökumətin Baş prokuroru təyin edildikdən sonra Ənuşirəvan atasının köməyi və məsləhəti ilə Təbrizə gəlir və Milli Hökumət qurulduqdan sonra Təbriz şəhərində təsis edilmiş polis məktəbində 21 Azərin nailiyyətlərini gələcəkdə qorumaq və xalqına xidmət etmək niyyəti ilə təhsil almağa başlayır.

Amma gənc Azərbaycan dövləti yarandığı ilk gündən qara qüvvələrin, böyük siyasi güclərin, Tehran mürtəcelərinin, daxili irticanın təzyiqləri qarşısında dayanmalı olur. Bir il fəaliyyət və mübarizədən sonra şah qoşunlarının hücumu ilə üz-üzə gələn Azərbaycan fədai dəstələri, polis qüvvələri və xalq qoşunları ağır döyüş şəraitində olduqlarından, beləki, kifayət qədər taktiki silahlara, eyni zamanda da onları ala biləcəkləri bir mənbəyə malik olmadıqlarından böyük itki və məğlubiyyətlə qarşılaşmalı olurlar. Bu zaman Firudin və Ənuşirəvan İbrahimi qardaşları düşmən qüv-

vələri qarşısında dayanmaq, onlarla ölüm-dirim döyüşünə girmək, vətənin azadlıq və istiqlaliyyətini qorumaq məqsədilə gənc könüllülərdən ibarət "Babək" qrupunu təşkil edirlər.

Bütün bunlara baxmayaraq güclü arxaya malik düşmən 21 Azər hərəkatını məğlubiyyətə uğradır, Azərbaycanı qan dəryasına çevirir, minlərlə fədai və firqəçi (25-35 nəfər arasında) (Seferi 2015: 220; Alizade (Barish Marandli). 2017: 5) sorğusualsız güllələnir, 100 min nəfərə yaxın hərəkat iştirakçısı, tərəfdarı və təəssübkeşi İranın pis ab-havaya malik cənub rayonlarına sürgün olunurlar, yüzlərlə demokrat zindanlara salınır, firqəçi və demokratların bir hissəsi (16 min nəfərə yaxın) (Bayramzade 2018: 178) isə şimala, Sovet Azərbaycanına mühacirət etməli olurlar.

Amma Firudin İbrahimi Azərbaycanı və qərar tutduğu Təbrizi tərk etmir, vətəndə qalmağı, düşmənlə sona qədər mübarizə aparmağı üstün tutur və bu münasibətlə də deyir: " Xalqı bu mübarizəyə biz cəlb etmişik və onları bu şəraitə biz salmışıq. Onları yalnız qoymağa haqqımız yoxdur. Onların yanında qalıb ölmək qaçmaqdan və vətəni tərk etməkdən daha yaxşıdır!" (Serabi, Zeferi. 2010: 134)

Belə bir şəraitdə Təbrizə xəbər gəlir ki, şah qoşunları Gilan istiqamətindən Astaraya doğru yürüşə başlamışdır. Firudin qardaşı Ənuşirəvanı yanına çağırır və ona təcili özünü Astaraya çatdırmasını, bacılarının və digər yaxınlarının sərhəddi keçərək Sovet İttifaqına mühacirət etmələrinin qarşısını almağı tapşırır. Ənuşirəvan qardaşının istəyini yerinə yetirmək üçün vaxtı itirmədən Astaraya doğru yola düşür. Sözsüz ki, bu onun üçün çox qorxulu bir tapşırıq idi. Belə ki, Azərbaycan başdanbaşa geniş bir zindana çevrilmişdi. Hər yerdə, bütün yollar üzərində, yaşayış məntəqələrinə giriş-çıxışlarda yoxlama postları qoyulmuşdu. Xüsusilə də sərhəd zonasına yaxın ərazidə olan Ərdəbil şəhəri, Təbriz-Ərdəbil arasındakı gediş-gəliş çox ciddi və şiddətli bir şəkildə Tehran mərkəzi hökumətinin polis və hərbi qüvvəlri tərəfindən nəzarətə alınmışdı. Tehrandan bu qüvvələrə qəti şəkildə Azərbaycan Demokrat Firqəsi üzvlərinin, onların havadarlarının aradan çıxmasının qarşısını almaq, onları aşkarladıqda həbs etmək və ya güllələmək əmri verilmişdi.

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

### *Ənuşirəvan İbrahiminin Astara səfəri və nəticələri*

19-20 yaşlı gənc Ənuşirəvanın belə bir şəraitdə Təbrizdən Astaraya səfəri onun həyatının ən ağır və bəlkə də gələcəyini həll edəcək ən mühüm anlarını təşkil edəcəkdir. Beləliklə, Ənuşirəvan Astaraya tərəf yola düşür və şəhərdən çıxar-çıxmaz artıq Tehran məmurları tərəfindən qurulmuş yoxlama məntəqəsində saxlanılır və dindirilmə başlanır. Nəhavənddə olduğu müddətdə lor dilini mükəmməl öyrənmiş və bu dildə çox gözəl danışan Ənuşirəvan yoxlama aparan məmurlara bildirir ki, o Nəhavənddən yük gətirmiş sürücünün şagirdidir və mövcud vəziyyəti görən sürücü qorxusundan onu qoyub qaçıb, o da indi öz "doğma" şəhərinə qayıtmaq istəyir. Məmurlar ona inanır və dediklərini qəbul edirlər. Bundan sonra Ənuşirəvan Təbrizdən Ərdəbilə doğru hərəkət edən bir hərbi yük maşını ilə oraya gedir. Qışın soyuğunda, qarın tüğyan etdiyi bu şəhərdə Ənuşirəvanın tanıdığı bir yer və ev olmadığından, qəhvəxanaların isə ciddi nəzarət altında olduğundan o da bütün yersiz qonaqlar kimi gecəni ümumi şəhər hamamında keçirməli olur və səhəri gün Ərdəbil-Astara yolu üzərində yerləşən Nəmin qəsbəsində onların ailəsinə yaxın olan İsmayıl adlı mehmanxana sahibinin yanına gedir. İsmayıl Ənuşirəvanı dostcasına qarşılayır, ona otaq da verir. Burada o, 21 Azər hərəkatının qələbəsindən sonra Azərbaycan Milli Hökuməti tərfindən Astara şəhərinin polis rəisi təyin olunmuş Məhəmməd Həbibi ilə bir otaqda qalmalı olur. Həmin gecə oraya gecələmək üçün Ənuşirəvanın gələcək siyasi həyat və fəaliyyətində çox mühüm rol oynayacaq Əmirəli Lahrudi adlı bir gənc də gəlir. Onlar iki gecə burada birlikdə qaldıqdan sonra mehmanxana sahibi onlara bir neçə saat sonra Astaraya doğru bir neçə hərbi yük maşını hərəkət edəcəyini və bunun onlara yollarını az risklə davam etdirmək üçün çox əlverişli bir fürsət olduğunu bildirir. Onlar Astaraya tərəf yollarına davam edərək müharibə vəziyyətində olan, küçələri qalaq-qalaq meyidlərlə dolu olan Ərdəbili geridə buraxırlar və axşama yaxın çovğun və güclü qar yağıntısı nəticəsində tamamilə bağlanmış Heyran gədiyinə çatırlar. Gecəni avtobus və hərbi maşınların sürücüsü ilə dolu olan bir qəhvəxanada keçirirlər, səhər tezdən isə bir çoxları kimi oradan çıxıb pay-piyada Heyran gədiyinə doğru hərəkət edirlər. Yolda Əmirəli Lahrudi və Məhəmməd Həbibi ondan ayrılırlar, Ənuşirəvan qarşıda bir neçə kilometrlik məsafədə olan Astaraya doğru yoluna tək olaraq davam etməli olur.

Qeyd etmək lazımdır ki, bu zamanlarda İran məkəzi hökuməti tərəfindən sərhəddi keçərək Sovet İttifaqına mühacirət edə biləcək azadlıqsevərlərin və firqə üzvlərinin qarşısını almaq məqsədilə Heyran gədiyindən Astaraya kimi yol boyu bir-birinə çox yaxın məsafələrdə yoxlama məntəqələri qurulmuşdu.

Yolun ağırlığından, sərt soyuqdan və aclıqdan bərk yorulmuş Ənuşirəvan nahar etmək və dincəlmək üçün yolunun üstündəki ilk qəhvəxanaya daxil olur. Burada o, uşaqlıqdan yaxşı tanıdığı astaralı bir tanışı ilə rastlaşır. Həmin tanışına çox inanan Ənuşirəvan atası və qardaşı Firudinin vəziyyəti, Astaraya səfərinin məqsədi barədə ona ətraflı məlumat verir. O da əvəzində Ənuşirəvana yalan danışaraq Astarada vəziyyətin yaxşı və sakit olduğunu bildirir. Buradakı fəaliyyətinə gəlincə isə bildirir ki, müəyyən məbləğ pul müqabilində bu yolla gedənlərə yoxlanılmadan keçib getmələrinə kömək edir. Onun cavabı Ənuşirəvanı şübhəyə salır və bu qənaətə gəlir ki, tanışı ona doğru olanı demir, yalan danışır, məqsədi də tamamilə başqadır.

Piyada yoluna davam edən Ənuşirəvan hiss hedir ki, həmin tanışı və onunla gələn başqa bir nəfər onu təqib edirlər. Ənuşirəvan bütün vücudu ilə qarşılaşdığı təhlükəni hiss edir və başa düşür ki, onların əlindən asanlıqla qurtara bilməyəcəkdir. O, özünü Astara çayı boyunca uzanan yolun kənarındakı sıldırımdan aşağı atır və fikirləşir ki, sağ qalsa, çay boyu hərəkət edib özünü doğma şəhəri Astaraya çatdıra biləcəkdir.

Qarlı sıldırımdan sürüşüb çayın kənarına düşən Ənuşirəvan burada iki Sovet sərhəd keşikçisi ilə qarşılaşır və Astaraya səfərinin məqsədini onlara olduğu kimi danışır. Əsgərlər ona bildirirlər ki, Astarada kimsə qalmayıb və şəhər tamamilə boşalıb. Ona məsləhət görürlər ki, öz yaxınlarını və qohumlarını sərhəddi keçib Sovet İttifaqına pənah gətirmişlər arasında axtarsın. Eyni zamanda ona bildirirlər ki, məqsədləri ona kömək etməkdir, əgər qəbul etmək istəmirsə, geriyə qayıda bilər, çünki sərhəd hələ ki, bağlanmayıb, gediş-gəliş azaddır. Ənuşirəvan İbrahimi düşdüyü vəziyyəti tam aydınlığı ilə dərk edərək sərhədçilərin təklifini qəbul edir.

## *Ənuşirəvan İbrahiminin mühacirət həyatı və elmi fəaliyyəti*

Ənuşirəvan Sovet Azərbaycanı tərəfindəki Astara keçid məntəqəsinə gətirildikdə orada Əmirəli Lahrudi və Məhəmməd Həbibi ilə rastlaşır. Onları bir otaqda yerləşdirirlər və səhəri gün isə Lənkərana sərhəd hərbi qərargahına gətirirlər. Qısa

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

sorğu-sualdan sonra onları sərhəd həbsxanasına təhvil verirlər və bir həftə müddətində orada qalmalı olurlar. Ənuşirəvan burada bərk xəstələnir, qızdırması yüksəlir və onu xəstəxanaya aparmalı olurlar.

Sağaldıqdan sonra onu birbaşa bacılarının və qohumlarının yanına gətirilər. Ənuşirəvan qardaşı Firudinin ismarıcını çatdırır, bacısı İrəc qohumlarla məsləhətləşir və yekdilliklə qərara alınır ki, onlar geriyə öz evlərinə, İran Astarasına qayıtsınlar. Sovet Azərbaycanına keçmiş İbrahimilər ailəsi sərhəd keçid məntəqəsinə yaxınlaşdıqda onlara bildirilir ki, sərhəddi azad surətdə keçmək üçün təyin olunmuş vaxt artıq bitmişdir və sərhədlər tamamilə bağlanmışdır və onların geriyə dönməsi qeyri mümkündür, İran və Sovet İttifaqının müvafiq məqamları arasında onlar haqqında müvafiq qərar qəbul edilənədək gözləməlidirlər.

Bununla da İbrahimilr ailəsi iki yerə parçalanmış oldu. Ata Qəni İbrahimi, ana Fatimə Şirvani, Firudin və böyük bacı İqlimə Arazdan cənubda, Ənuşirəvan, İrəc və İrandoxt bacıları, onların həyat yoldaşları isə şimalda, Sovet Azərbaycanında yeni həyata başlamalı oldular.

Azərbaycan Milli Hökumətinin Baş prokuroru olan Firudin İbrahimi son gülləsinə kimi düşmənlə üz-üzə dayandı, əsir düşdu, Təbriz və Tehran zindanlarında ona olmazın işgəncələr verildi və nəhayətdə bütün vücudu və varlığı ilə Azərbaycana və xalqına bağlı, onun azadlığı uğrunda amalına, hədəfinə, məsləkinə sadiq və dönməz olan 29 yaşlı vətənpərvər gənc mübariz dara çəkildi və şəhid oldu.

Müharibədən sonrakı ağır sosial-iqtisadi çətinliklərə baxmayaraq, Cənubdan Şimala mühacirət etmiş 21 Azər hərəkatı iştirakçıları, firqəçilr, fədailər və onların ailələri üçün münasib yaşayış şəraiti yaradıldı, onlar işlə təmin edildilər, orta və ali təhsil almaları üçün də hər cür şərait yaradıldı. Ənuşirəvan və bacıları da bu münasib şəraitdən istifadə etdilər, təhsil almaq üçün öncə yerləşdikləri Mərdəkandan Bakıya daşındılar.

Ənuşirəvan da təhsilini öz siyasi fəaliyyəti ilə uyğunlaşdırmaq niyyəti ilə tarix ixtisası üzrə Bakı Dövlət Universitetində ali təhsil alır və eyni ixtisas üzrə də elmi-tədqiqat fəaliyyətini davam etdirir, Moskvada "İran Xalq Partiyasının (Tudə) 1944-1946-cı illərdə irticaya qarşı mübarizəsi (İXP-nin parlamentdə və hökumətin tərkibində fəaliyyəti timsalında)" (Ибрагими1965) adlı dissertasiya işini müdafiə edərək alimlik dərəcəsi qazanır. Təəssüf ki, bu dissertasiya işi qapalı şəraitdə müdafiə

olunur və çapına da icazə verilmir. Bununla belə bu mövzu Cənubi Azərbaycanda xalqımızın azadlıq və milli-demokratik hüquqalar uğrunda mübarizəsinin ən aktual və mühüm problemlərindən birinə həsr olunmuşdur. Belə ki, Iranda 14-cü Məclisə seçkilər zamanı (seçkilər 1943-cü ilin iyun ayında başlamış və 1944-cü ilin 26 fevral günü Məclisin ilk açılış iclası olmuşdur) 15786 seçici səsi qazanan (Çeşmazer 1986: 59] Azərbaycan nümayəndəsi S.C.Pişəvəri deputat kürsüsündə yer tutmasına baxmayaraq, onun mandatı Məclisin 13 iyul 1944-cü il tarixli iclasında onunla seçkilərdə deputat kürsüsü uğrunda mübarizə aparmış deputatların heç bir qanuni və hüquqi əsası olmayan səsverməsi yolu ləğv edilmişdir (iclasda iştirak edən 99 deputatdan 48 nəfəri Pişəvərinin deputat mandatının ləğvinin lehinə, 48 nəfər əleyhinə səs verir və 3 nəfər isə bitərəf qalır) (Ибрагими 1965 50-51). Bu hadisədən 10 gün öncə, yəni 3 iyul 1944-cü il tarixində eyni senari ilə Təbrizdən deputat seçilmiş Rəhim Xoinin də mandatı ləğv olunmuşdur (Çeşmazer 1986: 43-45; Rehimli (Bije) 2009: 86-91). Qəbul edilmiş bütün bu qərarlar heç bir qanuni və məntiqi izahını tapmamışdır. Beləki, "əksəriyyət məclisdə iştirak edənlərin yarısından çoxunun səs verdiyi zaman əldə edilir" mövqeyini təsdiqləyən İran Konstitusiyasının 7-ci maddəsinə görə, Pişəvəri və Xoinin mandatları ləğv edilmiş sayılmamalı idi. Bununla belə Pişəvəri və Xoinin mandatlarının qanuniliyi məsələsi açıq qaldı. Nəticədə üstünlük irtica nümayəndələri tərəfində olduğundan birincilərin mandatları əməldə ləğv edildi. Əslində nə baş vermişdi? Məclisin mütərəqqi və azadlıqsevər millət vəkilləri dəfələrlə Azərbaycan millət vəkillərinə qarşı irtica tərəfindən qəbul edilən bu düşmən mövqeyə və qəbul edilən qeyri-qanuni akta etirazlarını bildirsələr də, Tudə partiyasının məclisdəki nümayəndələri öz qəti mövqelərini ortaya qoymamışlar və hətta ola bilsin ki, gizli səsvermədə tərkibində erməni və farsların da olduğu "Tudə" farksiyasının nümayəndələri Pişəvəri və Xoinin mandatının müdafiəsi üçün səslərini əsirgəmişlər. Çünki kommunist əqidəsində olmayan, İran xalqlarını rejimin zülm siyasətinə qarşı və milli hüquqlarının əldə edilməsi uğrunda mübarizəyə səsləyən bu şəxslərin mövqeləri Tudə partiyasının proqram və məramnaməsinə uyğun gəlmirdi. Beləki, İran Xalq Partiyasının Məclisdəki deputatlarının "İnsanların xoşbəxtliyini və unudulmuş hüquqlarını təmin etmək barədə" proqramında, eləcə də 14-cü çağırış Məclisinə təqdim edəcəkləri minimum qanun layihələrində Rza şah rejimi tərəfindən milli zülm siyasəti yeridilmiş İran kimi çoxmillətli bir ölkədə milli məsələ barədə heç bir mövqe əks olunmurdu. Tudənin Pişəvəriyə və

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

Xoiyə qarşı məlum mövqeyi sonuncuların mandatları ləğv edildikdən sonra yaydıqları və rəsmi orqanlarında da dərc etdikləri bəyanatlarından açıq-aydın görünürdü. Həmin mövqe belə idi: "Əgər S.C.Pişəvəri "Tudə" fraksiyasına qoşulsaydı, irticanın İran Xalq Partiyasına (Tudəyə) qarşı düşmən münasibətinə baxmayaraq, onun üzvlərinin mandatlarını ləğv edə bilmədiyi kimi, onlarla eyni şəraitə malik Pişəvərinin də deputat mandatını ləğv edə bilməzdi" (Ибрагими 1965: 53). Qeyd edilən bütün bu şəraiti və mövqeləri nəzərə almaqla Ənuşirəvan İbrahiminin Moskvada qapalı şurada müdafiə etdiyi dissertasiya işinin Azərbaycan dilinə tərcüməsi və nəşri sonrakı uzun illər (1952-1992) Tudə ilə ADF arasında yaşanmış və ört-basdır edilmiş gərgin münasibətlərə aydınlıq gətirməyə, bu məsələnin işıqlandırılmasına, doğru-düzgün məntiqi nəticələrin əldə olunmasına, müvafiq partiya və siyasi təşkilatların öz ideya-siyasi istiqamətlərini müəyyənləşdirmələrinə, İran xalqlarının milli-mədəni və milli-demokratik hüquqlar uğrunda mübarizəsində birgə mümkün hərəkət xəttini müəyyənləşdirmələrinə kömək etmiş olardı.

***Haşiyə:*** *Bir neçə xarici dildə sərbəst danışa bilən Ənuşirəvan İbrahimi Bakıda ingilis dili üzrə də ali təhsil almışdı. Ali təhsil aldığı illərdə də o, gələcək həyat yoldaşı Rəfiqə xanım Axundova ilə tanış olur, onunla ailə qurur və nəticədə Firudin, Fuad və Fəramərz adlarında üç oğul övladı dünyaya gəlir. Ənuşirəvan milli qəhrəman və şəhid olan böyük qardaşının xatirəsinə hörmətinin ifadəsi olaraq öz böyük oğluna Firudin adı verirmişdir. Firudin də öz əmisinin yolunu davam etdirmək məqsədilə hüquq təhsili alır və 39 ilə yaxın bir müddətdə Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarında çalışır. Ənuşirəvanın digər övladları, Fuad tibb təhsili alaraq cərrah ixtisasını qazanır, Fəramərz isə iqtisadçı olur.*

## *Ənuşirəvan İbrahiminin mühacirət illərindəki siyasi fəaliyyəti*

Ənuşirəvanın mühacirətdəki həyatının əsas hissəsini onun siyasi fəaliyyəti təşkil edir. O, Azərbaycan Demokrat Firqəsinin (ADF) fəal və nüvuzlu üvlərindən birinə çevrilir. Burada fəaliyyətinə cavanlar təşkilatından başlayır və firqənin mərkəzi komitəsinin üzvlüyünə qədər yüksəlir. O dəfələrlə ADF-nin cavanlar təşkilatı adından dünya demokrat cavanlarının beynəlxalq konfrans və seminarlarında iştirak edir, dünya ölkələrində fəaliyyət göstərən digər sol və demokrat partiyaların nümayəndələri ilə tanış olur, İtaliya, Kuba, İraq və bu kimi bir sıra ölkələrin azadlıq və demok-

ratik hərəkatlarının təşkilatçıları ilə fəal ünsiyyətdə olur, onlarla yaxından əməkdaşlıq edir, fikir mübadiləsi aparır, faydalı təcrübələr qazanır.

ADF 21 Azər hərəkatından sonra Sovet Azərbaycanına mühacirət etmiş fədai və firqəçilərin məskunlaşdıqları bütün rayon, şəhər və qəsəbələrdə öz təşkilat və şöbələrini yaratmaqla öz fəaliyyətini yenidən təşkil edir.

İran neftinin milliləşdirilməsi uğrunda baş vermiş 1951-1953-cü illər antiimperialist və milli-azadlıq hərəkatın yatırılmasından, xüsusilə də 28 avqust 1953-cü il dövlət çevrilişindən sonra irtica rejiminin təhlükəzislik qüvvələri tərəfindən şiddətli basqılara məruz qalan İran Xalq Partiyası (Tudə) rəhbərləri və üzvləri də xaricə mühacirət edir və xüsusilə sosialist düşərgələri ölkələrinin Moskva, Sofiya, Praqa, Berlin (Şərqi Almaniya) kimi şəhərlərində məskunlaşırlar.

Bu dövrdən də başlayaraq ideoloji mübarizəyə daha çox fikir verən İXP ADP-nin fəhlə partiyası olması mövqeyindən çıxış edərək özünün elə ilk mühacirət illərindən (1953) İranda vahid fəhlə partiyasının yaradılması mövqeyini ortaya qoymuş və göstərmişdir ki, bir ölkədə bir neçə müstəqil fəhlə partiyasının fəaliyyəti qələbəni təmin edə biləcək birliyi nəinki pozur, hətta onun parçalanması üçün şərait yaradır və mövqeləri zəiflədir. Halbuki ADF yaranarkən onun ictimai tərkibinin 8 %-ini fəhlə və sənətkarlar, 69,5 %-ini kəndlilər (varlı, orta və kasıb təbəqələr birlikdə), 4,5 %-ini ziyalılar, 6 %-ini mülkədarlar, 13 %-ini isə cəmiyyətin başqa təbəqələri təşkil etmişlər (Çeşmazer 1986: 101; Байрамзаде 1989: 36-39; Bayramzade 1992: 28-29; “Azerbaycan” qazeti. Azerbaycan Demokrat Firqesinin orqani, 06.12.2019). Bu o deməkdir ki, firqə kommunist ideologiyasının daşıyıcısı ola bilməzdi. Çünki İranda, S.C.Pişəvərinin təbiri ilə desək, kommunistlər müxtəlif sosial təbəqələrdən ibarət geniş xalq kütlələrini öz arxasınca apara bilməzdi (Rehimli (Bije) 2009: 74). ADF-nin yarandığı gündən keçən qısa zaman kəsiyində isə onun sıralarında cəmiyyətin müxtəlif təbəqələrindən olan 200 min nəfərdən çox firqəçi birləşmişdi (Çeşmazer 1986: 100).

Tudə rəhbərləri özlərini müstəqil və azad, ADF-ni isə Sovet İttifaqı Kommunist partiyasının göstərişi və təşəbbüsü ilə yaradılan bir partiya kimi qələmə verməyə çalışmışlar. Hətta, Cənubi Azərbaycanda demokratik hərəkatın məğlubiyyətindən keçən iki il ərzində belə Tudə leqal şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, İranda qalmış ADF üzvlərini birləşdirmək üçün heç bir təşəbbüs göstərməmişdir. Bu

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

hal isə öz növbəsində ADF yerli təşkilatlarını çaşdırmış və irticaçı ünsürlərin təxribatçı fəaliyyəti üçün imkan yaratmışdır (Байрамзаде 2016: 209-210).

1960-cı ilə kimi ADP və İXP rəhbərləri arasında ideoloji mübarizə davam etmiş, hər tərəf öz mövqeyinin düzgünlüyünü müdafiə etməyə çalışmış və nəticədə o dövrkü Sov.İKP rəhbərliyinin məsləhət və göstərişlərini (*Sov.İKP MK Siaysi Bürosunun üzvü Suslovun 11 yanvar 1957-ci il tarixli məsləhətini*) əldə rəhbər tutan “demokratlar” və “tudəçilər” İXP-nin qələbəsini təmin etmişlər.

1960-cı il avqust ayının 1-2-də ADF və İXP MK üzvlərinin iştirakı ilə “Vəhdət konfransı” keçirilir və nəticədə müxtəlif sosilal bazaya və hədəflərə malik bu iki siyasi təşkilatın “fəhlə sinfinin vahid təşkilatı” ünvanında birləşdirilməsi gerçəkləşir. Konfransda demokratlara təsəlli və ümid verən yeganə məsələ bu oldu ki, ADF öz adını və Mərkəzi Komitəsini (MK) saxlamaq şərtilə İXP-nin Azərbaycan Əyalət komitəsi kimi təsdiq olundu. Beləliklə, ADF-nin müstəqil partiya kimi fəaliyyətinə yekun vurulmuş oldu (Байрамзаде 1989 36-39; “Azerbaycan” qazeti. Azerbaycan Demokrat Firqesinin orqani, 06.12.2019; Serabi, Zeferi. 2010: 150-153).

Ənuşirəvan İbrahimi də 1960-cı il “Vəhdət konfransı”nda Azərbaycan Demokrat Firqəsinin nümayəndələri sırasında fəal iştirak edənlərdən biri olmuşdur. O da öz xatirələrində təsdiqləyir ki, bu konfransın qərarı ilə həqiqətdə ADF zorla Tudəyə birləşdirildi (Serabi, Zeferi 2010: 153).

Sözügedən konfransın digər müvafiq qərarları ilə o zamankı ADF sədri Qulamyəhya Daneşian İXP icraiyyə heyətinin üzvü, Əmirəli Lahrudi isə icraiyyə heyətinin müşavir üzvü seçilirlər. Bir müddət Şərqi Almaniyada siyasi fəaliyyətlə məşğul olan Ə.Lahrudi İXP icraiyyə heyətinin qərarı ilə Sovet Azərbaycanına qayıdır və onun yerinə Berlinə Ənuşirəvan İbrahimi göndərilir (Serabi, Zeferi. 2010: 153). O, 1978-1979-cu illər inqilabı baş verənə kimi İXP icraiyyə heyətinin üzvü olaraq bu partiyanın İranla qonşu olan Türkiyə, Hindistan və bu kimi bir neçə ölkədə olan təşkilatlarının işlərinə rəhbərlik edir.

## *Ənuşirəvan İbrahiminin İrana dönüşü və Azərbaycanda siyasi fəaliyyəti*

1978-1979-cu illər inqilabı nəticəsində şahlıq rejimi devrildikdən sonra Ənuşirəvan İbrahimi də İXP rəhbərləri sırasında Şərqi Almaniyadan birbaşa İrana gəlib yerləşir. İXP-nin şəhər, vilayət və əyalət təşkilatları bütün ölk üzrə fəaliyyətini bərpa edərək işə başlayır.

Ənuşirəvan İbrahimi də Təbriz şəhərində İXP-nin Azərbaycan əyalət təşkilatının - Azərbaycan Demokrat Firqəsinin katibi ünvanında fəaliyyətə başlayır.

32 il ayrılıqdan sonra vətənə dönən Ənuşirəvan İbrahimi Qaimşəhərdə bacısı İqlimənin nəvəsi Firəngizin yanında yaşayan ağbirçək anası Fatimə xanımın görüşünə gedir. Burada ana-oğul, bacı-qardaş, nəvələr, nəticələr görüşür, Ənuşirəvan anasının qarşısında diz çökür, ona çəkdirdiyi iztirablara və verdiyi əzablara görə dönə-dönə üzr istəyir. Bu zaman Ənuşirəvanın bacısı İqlimə özünün dörd oğlunu ona təqdim edərək deyir: “Bunlar sənin fədailərindirlər!”.

Bu görüşdən bir neçə gün sonra Ənuşirəvan iki günlüyünə Nəhavənd şəhərinə gedir, atası Qəni İbrahiminin qəbrini ziyarət edir.

Nəhavəndə səfərindən iki sonra Ənuşirəvan Tehrana, oradan da Təbrizə gəlir. Burada ilk öncə 21 Azər yadigarı, Azərbaycan millətinin qəhrəman oğlu, Milli Hökumətin Baş prokuroru və xalqının azadlığı yolunda şəhid olmuş böyük qardaşı Firudin İbrahiminin məzarını ziyarət etmək üçün “Ağalı” (bugünkü “İmamiyyə”) qəbirstanlığına baş çəkir. Firudinin məzarı önündə dayanaraq bunları söyləyir: “Əziz qardaşım! Böyük ustadım! Mən çox istədim ki, son ana qədər sənin yanında olum. Amma sənin tapşırığına əməl etmək məni səndən ayırdı. Mən bütün bu illər boyu səninlə birlikdə yaşamışam və mənə öyrətdiyin hər şeyə əməl etmişəm. Sənə qovuşmaq üçün də yolunu davam etdirirəm” (Serabi, Zeferi. 2010: 160).

Azərbaycan Demokrat Firqəsi (Tudənin əyalət komitəsi ünvanında) 32 ildən sonra Ənuşirəvan İbrahiminin rəhbərliyi altında yenidən özünün açıq və qanuni fəaliyyətinə başladı. ADF-nin orqanı “Azərbaycan” qəzeti yenidən ana dilində öz nəşrini bərpa etdi. Bu dəfə Ənuşirəvan özü şəhid qardaşı Firudinin yolunu davam etdirərək qəzetdə məqalələr dərc və hər sayda gedən məqalələri redaktə edir. “Azərbaycan” qəzeti ətrafında Ənuşirəvan İbrahimi ilə yanaşı ADF-nin mühacirətdə olan Mərkəzi Komitəsinin üzvlərindən Seyidağa Onullahi, Məhəmməd Hüseyn Xoşgina-

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

bi, Tağı Musəvi, Mirvahab Əfxəmi, Məhəmmədəli Fərid, Məhəmmədəli Müciri, Fəqih, İrandoxt İbrahimi, Firudin Kazimi və başqaları birləşdilər, Azərbaycan xalqının milli-demokratik və mədəni hüquqlarının əldə edilməsi uğrunda birlikdə, çiyin-çiyinə mübarizəni davam etdirdilər ("Azerbaycan" qazeti. Azerbaycan Demokrat Firqesinin orqani, 06.12.2019).

Ənuşirəvan İbrahimi gecə-gündüz çalışırdı, təşkilat işləri ilə məşğul olurdu. Azərbaycanın şəhər və qəsəbələrində ADF-nin şöbələrinin yaradılması və açılışında şəxsən özü iştirak edirdi, həmin şöbələrə rəhbərlərin təyin olunması işinə də çox ciddi, ehtiyatlı, diqqətli və həssaslıqla yanaşırdı, hətta ən kiçik detalları belə nəzərdən qaçırmırdı. İşlərin təşkilində tələbkar olduğu qədər də insanlarla münasibətində çox sadə və təvazökar bir xarakterə malik idi. Ona görə də firqəçilər, dostlar və xalq arasında qısa bir müddətdə böyük nüfuz sahibi olmaqla yanaşı ADF-nin statusunu da çox yüksəklərə qaldıra bildi (Serabi, Zeferi. 2010, 161).

"Azərbaycan" qəzeti öz səhifələrində sadə ana dilində cəmiyyətdəki müxtəlif təbəqələrin sosial-iqtisadi durmunu şərh edir, onların yaxşılaşdırılması üçün inqilab komitələri qarşısında məsələ qaldırırdı. Qəzet "Kargərlər (*fəhlələr - S.B.*) qələbə çaldı" başlıqlı məqaləsində yazırdı ki, 1979-cu ilin dekabr ayının 13-də səhər çağı Təbriz kərpic zavodunun fəhlələri və yükdaşıyan maşınların sürücülərindən 2500 nəfəri tətil etmişlər. Tətil edənlər mənzil haqqı, uşaq pulu, ərzaq haqqı, cümə və rəsmi tətil günlərində zəhmət haqqı, ildə iki dəst iş paltarı verilməsini tələb etmişlər ("Azerbaycan" qazeti. Azerbaycan Demokrat Firqesinin orqani, 26.12.1979).

Qəzet eyni zamanda da uzun illərdən bəri sıxıntı, ehtiyac içərisində yaşayan və onlardan alınan müxtəlif növ vergilərin ağırlığından əziyyət çəkən kəndlilərin tələblərini öz səhifələrində əks etdirərək yazırdı ki, "Azərbaycan kəndlərinin də hamısında acınacaqlı vəziyyət hökm sürür, 80 ailə yaşayan Çarvarud kəndi Azərşəhrin (Tufarqan) ətrafında yerləşir. Bu kəndin əkinçiləri hələ də ibtidai vəsaitələrlə əkin əkirlər. Kəndin maldarları heyvanlar üçün yem azlığından korluq çəkirlər. Əkinçilər dörddə bir bəhrə hesabı ilə malikə rəiyyətlik edirlər. Azyaşlı uşaqların çoxu qali (*xalça – S.B.*) toxumaqla məşğuldur. Qali toxuyanların 60%-i 15 yaşdan aşağı uşaqlardır. Kəndin caddəsi (*yolu- S.B.*) xarab haldadır. Fəqət bir bulaqdan içməli su üçün istifadə edilir...." ("Azerbaycan" qazeti. Azerbaycan Demokrat Firqesinin orqani, 26.12.1979).

Azərbaycanın şəhər və kəndlərində belə bir vəziyyətin hökm sürdüyü vaxtda onların öz ana dillərində qəzet, jurnal əldə etmələri, oxumaları, savadlanmaları, hər şeyi yerində dərk etmələri, düzgün başa düşmələri, necə hərəkət etmək lazım gəldiyini bilmələri olduqca vacib idi. Bununla belə inqilabdan sonra da ana dilində dövri mətbuatın yayılmasına mane olanlar çox idi.

ADF-nin adıgedən məsullarının və firqə təəssübkeşlərinin dəstəyi ilə “Yoldaş” və “Dədə qorqud” jurnalları işıq üzü gördü, 300-dən artıq üzvü olan “Azərbaycan şairlər və yazıçılar cəmiyyəti” yaradıldı.

Mövcud vəziyyət barədə “Yoldaş” jurnalına göndərilən məktubların birində yazırdılar ki, “Azərbaycan dilində çap olunan qəzet və dərgilər bu günlərdə ən böyük çətinliklərlə üzləşiblər. Gündə bir bucaqdan xəbər verirlər ki, filan kənddə və ya şəhərdə filan jurnal və ya qəzeti yığışdırıblar, onların bəzilərini od vurmaqla hədələyirlər. “Yoldaş” və başqa qəzet və dərgilər Ərdəbildə, Təbrizdə, Urmiyada yayıla bilmir və ya yayılandan sonra inqilab komitələri tərəfindən yığılırlar” (“Yoldash” jurnali, 1979: 13, 47).

Tudənin təkibində ADF-yə müxalif olan bir sıra rəhbər məqamlar, o cümlədən ona rəhbərlik edən Kiyanuri özü də “Azərbaycan” qəzetinin nəşri dayandırıldıqdan sonra əslində bir rahatlıq tapdılar. Tudənin belə bir mövqe tutması, İrandakı digər siyasi təşkilat və partiyaların milli-demokratik hüquqların əldə edilməsi uğrundakı mübarizələrini dəstəkləməməsi aşağıdakı şərh olunan iki başlıca məsələ, daha doğrusu inqilabın xarakteri və inkişaf istiqamətləri ilə bağlı idi.

1978-1979-cu illər İran inqilabının bir-birinə bağlı iki cəhəti var idi: biri **demokratik**, digəri isə **antiimperialist**. İranda hələ fevral inqilabından əvvəl onun astanasında baş verən ilk çıxışlarda, eləcə də sonrakı şəhər həyəcanlarında şəhərin orta təbəqələri (xırda burjuaziya), onlara bağlı olan fəhlələrin bir hissəsi iştirak edirdi. **Hərəkatda iştirak edən əsas qüvvələrin tərkibi İran inqilabının birinci mərhələsinin əsas xarakterini və siyasi istiqamətini müəyyənləşdirirdi.** Birinci mərhələnin əsas xüsusiyyəti ondan ibarət idi ki, ona müxalifətdə üstünlük təşkil edən iri şiə üləmaları rəhbərlik edirdilər. Birinci mərhələnin digər xüsusiyyətlərindən biri də o idi ki, mahiyyətcə bir-birindən çox uzaq olan, ideya-siyasi münasibətlərində bir-birindən fərqlənən qüvvələr arasında təbii olaraq həmrəylik yaranmışdı. Bu da ondan irəli gəlirdi ki, **hərəkatın ümumi məqsədi şah rejimini devirmək idi** *[журнал Народов Азии и Африки,1979, 3, 53].*

Demokratik qüvvələrin də siyasi mübarizəyə qoşulmaları siyasi qüvvələrin vəziyyətini müxalifətin xeyrinə dəyişdi və bundan sonra antişah hərəkatda demokratik meyl və cərəyanların rolu əhəmiyyətli dərəcədə artdı. **Bundan sonra inqilab mahiyyətcə ümumxalq xarakteri aldı**. Elə bu vaxtdan etibarən müxalifətçi hərəkata sənaye proletariatı, qulluqçular, tələbələr, ziyalılar və yuxarı sinif şagirdləri də qoşuldular.

1978-ci ilin noyabr ayının sonundan **inqilabın ikinci mərhələsi** başladı və bu mərhələ imperialist dairələrin İrana güclü təzyiqi ilə bağlı oldu. Beləki, ABŞ bir sıra Qərb dövlətlərini də İranda şah rejiminə kömək etməyə təhrik edirdi. Bütün bunlar da ABŞ və Qərb dövlətlərinə münasibətdə İran ictimaiyyətində daha böyük hiddətə səbəb oldu (Народов Азии и Африки, 1979: 3, 56).

Belə bir şəraitdə Tudə rəhbərliyi özünün Məramnamə və Nizamnaməsində əksini tapmış əsas hədəf və prinsiplərinin əksinə olaraq milli qüvvələrin, o sırada ADF-nin, onun ətrafında birləşən və ona dəstək verən milli fəalların muxtariyyət, iş, torpaq, mütərəqqi milli mətbuat istəklərini lazım olan səviyyədə dəstəkləmədi, özünü fəhlə sinfinə deyil, inqilabın əsas sosial bazasını təşkil edən orta təbəqəyə (xırda burjuaziyaya) yaxın gördü, onların dəstəyindən istifadə etmək qərarına gəldi.

İran Xalq Partiyası özünün bütün üzvlərini, tərəfdarlarını və bütün İran xalqını imperializm əleyhinə, ABŞ-a qarşı mübarizədə bütün xalq qüvvələrinin birliyinin möhkəmlənməsi, eyni zamanda antiimperialist və xalq ruhlu İmam Xomeyni hakimiyyətini dəstəkləmək xatirinə, mümkün olduğu qədər, tez bir zamanda Əsas Qanunla bağlı referendumda (səsvermədə) iştiraka və bu sənədə müsbət rəy verməyə dəvət etdi ("İreli" qazeti. İran demokrat cavanlar ve telebeler teshkilatinin orqani, 30.11.1978).

Tudə rəhbərləri Təbrizdə və Azərbaycanın bir sıra şəhər, rayon və qəsəbələrində İran Xalq partiyasının Azərbaycan əyalət təşkilatı (ADF) adından "Hezbi Tudeyi İranın Azərbaycan təşkilatı olan ADF Əsas Qanuna müsbət rəy verir!", "Əsas Qanuna müsbət rəy vermək Amerika imperializminə dişsındırıcı cavabdır!", "Əsas Qanuna müsbət rəy verməklə ziddi-imperialist və inqilabi qüvvələrin vahid cəbhədə birləşməsinə təsirli kömək edək!" kimi şüarların yayılmasını təşkil etdi ("İreli" qazeti. İran demokrat cavanlar ve telebeler teshkilatinin orqani, 30.11.1978).

Ənuşirəvan İbrahimi Tudə partiyasının namizədi kimi İran İslam Respublikasının ilk parlament seçkiilərinə də qatıldı və Tudənin digər namizədi olan Cövdət ilə birlikdə dəfələrlə seçki öncəsi televiziya debatlarında iştirak etdi. Bu televiziya debatlarında Tudə və ADF-nin mövqeyi ilə müxalif olanlarla eyni mövqedə dayanan veriliş aparıcıları Azərbaycan Demokrat Firqəsinin tarixini saxtalaşdırmağa cəhd göstərəndə 21 Azər hadisələrinin, Azərbaycan Milli Hökumətinin bir illik hakimiyyəti dövründə firqənin fəaliyyətinin canlı şahidi olmuş Ənuşirəvan İbrahimi aydın, məntiqi, inkaredilməz dəlillərlə onların bütün suallarına və onların yalan böhtanlarına əsaslı və inandırıcı cavablar verirdi. Onun bu televiziya debatlarındakı deyimləri və mövqeyi ailələrdə, cavanlar, yaşlılar və cəmiyyətin müxtəlif təbəqələri arasında geniş müzakirələrə səbəb olmuşdu, firqəyə, onun fəaliyyətinə, keçdiyi tarixi yola, gördüyü işlərə maraq çox artmışdı. Yeni yaranmış islam rejimi bu debatları və orada müzakirə olunan məsələləri öz ziyanına bilib həmin verilişlərin yayımlanmasını tamamilə dayandırır. Ənuşirəvan İbrahiminin Azərbaycan Demokrat Firqəsinin, onun fəaliyyəti ilə bağlı siyasi dairələrdə ortaya qoyduğu mövqeyi İslam hökuməti və onun rəhbərliyi tərəfindən təqsdiq edilmir, hətta Tudə partiyasının əksər rəhbərləri də onun bu mövqeyini dəstəkləmirlər. Nəticədə, bu ideloji qarşıdurmalar yeni yaradılan təşkilatlarda intizamın zəifləməsinə səbəb olur. Bu isə düşmən tərəfin xeyrinə işləyirdi.

1981-ci ilin mart ayında Tehranda Tudə partiyasının geniş plenumu təşkil olunur. Bu, İran xalqının qələbəsindən sonra Tudənin ölkə daxilində təşkil edilən son və eyni zamanda ən qısa müddətli plenumlarından biri olur. Bir gün ərzində öz işini başa vuran Tudənin 17-ci plenumunda 9 nəfər partiyanın ən ali orqanı hesab olunan idarə heyətinə seçilirlər. Ənuşirəvan İbrahimi də bu 9 nəfərin arasında idi. Tudənin tərkibində Azərbaycan Demokrat Firqəsinə müxalif olanlar, xüsusilə də Tudənin birinci katibi Kiyanuri üçün bu plenum firqə ilə haqq-hesab çəkmək, firqəçilərə təsirli bir zərbə vurmaq üçün ən gözəl fürsət oldu. Belə ki, Kiyanurinin təzyiqi nəticəsində İran inqilabının qəlbəsindən sonra vətənə qayıtmayan (əslində gələ bilməyən) Tudə partiyasının, eləcə də onun əyalət təşkilatı hesab olunan ADF-nin bir sıra üzvləri partiya sıralarından çıxarılmış hesab edildilər. Kiyanuri də bu plenumda rəsmi olaraq elan etdi ki, onların İrandan kənarda təşkilatları yoxdur (Serabi, Zeferi. 2010: 164). Əslində onun bu sözləri firqənin Qulamyəhya, Əmirəli Lahrudi və Həmid Səfəri kimi üzvlərinə aid idi. Plenum Ənuşirəvan İbrahimidən başqa heç kimi, hətta

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

Qulamyəhyanı və Əmirəli Lahrudini Tudənin Mərkəzi Komitəsi üzvlüyünə seçmədi. Bununla da Tudə partiyası əməli olaraq Azərbaycan Demokrat Firqəsi ilə münasibətlərini qırmış oldu, amma bu barədə uzun illər qanuni bir bəyanat qəbul edilmədi.

Yaranmış şəraitdən çox məharətlə istifadə edən İslam hakimiyyəti qeyri dini və laik partiyaların, təşkilatların, xüsusilə də sol qüvvələrin və həmin sırada Tudənin taleyini müəyyən etdi. İnqilab rəhbəri də artıq öz çıxışlarında onlarla həmrəy olmayanlara, demokratiya tərəfdarlarına qarşı çıxışlar etməyə başladı, onları inqilabın düşmənləri sırasında olanlar kimi qələmə verdi. Nəticədə, 1982-ci ilin qışında (əvvəllərində) Tudənin birinci katibi Kiyanuri və bir sıra rəhbərləri həbs edildilər. 1983-cü ilin aprelində İran Xalq Partiyasının fəaliyyəti qeyri-qanuni elan edildi.

Sərhədə daha yaxın Təbriz şəhərində yaşayan və mühacirət imkanları daha çox olan Ənuşirəvan İbrahimi İranı tərk etmir. O, siyasi fəaliyyətin artıq mümkün olmadığı belə bir ağır şəraitdə də israrla bu sözləri təkrarlayır: “Mən öz həmməsləklərimdən 30 il artıq ömür sürmüşəm. Mən demokrat firqəsinin məğlub olduğu və Milli Hökumətin yıxıldığı günlərdə mühacirətə getmək istəmədim, qardaşım kimi xalqımın yanında olmağı üstün tutdum. Amma şərait məni mühacirət etməyə məcbur etdi. Mən qardaşımın vəsiyyətinə vəfadar qalacağam, bu dəfə şüarım “öldü var, döndü yoxdur!” olacaqdır” *[Serabi, Zeferi. 2010, 166]*. Belə bir şəraitdə Ənuşirəvan İbrahimi bütün imkan və vasitələrdən istifadə etməklə Azərbaycanda, xüsusilə Təbrizdə firqə kadrlarının təhlükəsizliyini təmin etmək üçün ehtiyat tədbirlərini həyata keçirir, onların məxfi iş fəaliyyıtinə keçmələrini təşkil edir. O üzdən də pasdarların (“inqilab keşikçiləri”nin) basqınları zamanı onlardan ələ keçəni olmur. Ənuşirəvan özü isə Tehrana getdiyindən Mərkəzi Komitənin digər üzvləri ilə birlikdə həbs olunur.

Zindanlardakı məhbuslara verilən işkəncələr elə bir həddə çatdırılırdı ki, onlar ya tələf olmalı, ya da xarici bir dövlətin casusu olduqlarını, İran İslam Respublikasına qarşı çevriliş hazırladıqlarını etiraf etməli idilər. Ənuşirəvan da bu cür işgəncələrə məruz qalırdı. O, bacısı İqlimə ilə zindandakı son görüşündə ona vəsiyyət olaraq bunları söyləyir: “Bunlar məni edama məhkum etmişlər. Yəqin bilirəm ki, hamımızı öldürəcəklər. Əgər bacarsan, cənazəmi onlardan alıb Astaraya apar və anamın ayaqları altında dəfn elə. Əgər verməsələr və digər mübarizə yoldaşlarımla birgə öldürsə-

lər, mənim dəfn olunduğum yeri yadında saxla. Əgər övladlarım bu istibdad rejimi devrildikdən sonra gəlsələr və məni tapmaq istəsələr, qoy, çətinlik çəkməsinlər. Əminəm ki, bu rejim devriləcəkdir. Mənim ölüm xəbərimi heç kimdən, hətta övladlarımdan belə gizləmə. Dözümlü, səbirli ol və özünü qoru. Əgər bir gün nəvələrimi görmək üçün bir şərait yaranarsa, mənim tərəfimdən onların üzündən öpərsən. Hamıya mənim salamımı yetir. Mənə görə narahat olma. Mən gərək qardaşım Firudin və Azərbaycan Demokrat Firqəsinin şəhidləri ilə birlikdə öləydim. Mən həmin gündən indiyə kimi artıq ömür sürmüşəm" (Serabi, Zeferi. 2010: 167).

Ənuşirəvan Qəni oğlu İbrahimi son nəfəsinə kimi öz etiqadını və inamını ani də olsa, dəyişmədi, rəşadətli və şəhid qardaşı Firudin İbrahiminin ideyalarına sadiq qaldı, onlardan ilham aldı, uzun illər siyasi mübarizə yollarında bişdi, möhkəmləndi.

Yeddi aydan artıq bir müddətdə Ənuşirəvan İbrahimi ilə zindanda bir otaqda olmuş məşhur yazıçı və tərcüməçi M.Ə.Behazin özünün zindan xatirəlrində onun haqqında yazır: "Üç gün sonra məni 209-cu sıradakı 23 saylı kameraya apardılar... Gözümü açdıqda kameranın küncündə arxası divara tərəf tanımadığım bir adam oturmuşdu. Məni görən kimi qalxdı, qucaqladı və üzümdən öpdü. Qısa saqqalına çal düşmüşdü, şirin Azərbaycan dilində özünü təqdim etdi. Ənuşirəvan İbrahimi. Düz altı il öncə bir dəfə Berlində görüşmüşdük. Yadıma 1946-cı ildə şah qoşunları Təbrizə girdikdən sonra Azərbaycanın Baş prokuroru ünvanında həbs edilən və sonra dar ağacından asılan cavan dostum Firudin İbrahimi düşdü. Allah ona rəhmət eləsin!

Ənuşirəvan ilə 7 aydan çox bir kamerada olduq. O, çox müdrik, şirin sözlü, zövqlü və imanlı, dostluqda güzəştə getməyi bacaran, dözümlü, ürəyi-qəlbi düz bir adam idi... Astarada doğulmuşdu, Rza xan vaxtı atası Qəni ilə Nəhavənddə sürgün həyatı yaşamışdı, 1945-1946-cı illərdə Təbrizdə, sonra isə Sovet İttifaqında, Lənkəranda, Bakıda, Moskva və Almaniyanın Leypsik şəhərlərində mühacirətdə olmuşdu. Nəhayət, Tehrana və yenidən Təbrizə dönmüşdü... İnqilabdan sonra Təbrizdə Azərbaycan Demokrat Firqəsinə, onun yerli təşkilatlarına rəhbərliyi öhdəsinə götürmüşdü... Anasını öz əlilə Astaradakı ailə qəbristanlığında dəfn etmişdi, onunla görüşə gələn qohumlarına da demişdi ki, ölümündən sonra onu da orada anasının yanında dəfn etsinlər... Ənuşirəvan bilirdi ki, məhkəməsi qapalı olacaq, onun müdafiəsi üçün vəkil təyin edilmıyəcək və ona görə də müdafiə nitqini özü yazıb hazırladı... Məntiqi çox ölçülü-biçili, özü də qürurlu və mövqeyində güzəştsiz idi... İran inqilabını da an-

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

timperialist və xalq inqilabı kimi tanıdı...” ("Rah-e Tude". (2013, mart 18).http://www.rahetudeh.com/rahetude/2013/10mars/3/ebrahimi.html).

## Nəticə

Ənuşirəvan İbrahimi və onun rəhbərlik etdiyi Azərbaycan Demokrat Firqəsi və üzvlərinin fəaliyyəti 4 ildən artıq çəkmədi. 3000-dən çox firqə üzvü həbs olundu. Ənuşirəvan İbrahimi 13 sentyabr 1987-ci il tarixində Tehrandakı “Evin” zindanında edam edildi (Bidaran. (2021). http://www.bidaran.net/spip.php?rubrique19).

O, Tehranın şərq hissəsində bu gün "Xavəran" adlanan keçmiş Misgərabad qəbristanlığında azad həyat uğrunda canlarını qurban vermiş minlərlə dostları və həmfikirləri arasında uyumaqdadır.

Ənuşirəvan Qəni oğlu İbrahimi də keçdiyi mənalı ömür yolundakı xidmətləri ilə əbədi olaraq Azərbaycanın şəhidləri sırasına daxil oldu. İdeyalarını, məsləkini, düşüncələrini, azadlıq uğrunda mübarizəsindəki qətiyyətini və dönməzliyini, Vətənə sədaqətini və sevgisini gələcək nəsillər üçün nümunə olaraq qoyub getdi. Son nəfəsinə qədər bütün mübarizə yoldaşları kimi Azərbaycana azadlıq istəyi ilə yaşadı.

## Ədəbiyyat siyahısı

1.“*Azerbaycan*” qazeti. Azerbaycan Demokrat Firqesinin orqani.
2.“*İreli*” qazeti. İran demokrat cavanlar ve telebeler teshkilatinin orqani.
3.“*Yoldash*” jurnali.
4.Rehimli (Bije), A. (2009). *Mubarize burulganinda kechen omur*. Seyid Cefer Pisheveri, Baku: “Nurlar” Neshriyat-Poliqrafiya Merkezi.
5.Seferi, H. (2015). Guney Azerbaycanda 1946-ci il soyqirimi, - “21 AZER-70” movzusunda Elmi Konfransin materiallari, Baku, “Araz” neşriyati.
6.Bidaran. (2021). Alınmışdır:http://www.bidaran.net/spip.php?rubrique19
7.Alizade, H. (Barish Marandli).(2017). *“21 Azer” soyqirimi (1946-1947-ci illerdə Cenubi Azerbaycanda kutlevi qirginlar)”,* Baku: “Elm ve tehsil” neshriyyati.
8.Çeşmazer, M. (1986). *Azerbaycan Demokrat Firqesinin yaranmase ve fealiyyeti*, Baku: Elm.
9.Bayramzade, S. (1992). *Cenubi Azerbaycan tarixinin “ag lekeleri”.* Azerbaycan Demokrat Partiyasinin yaranmasi, fealiyyeti və suqutu., - Azerbaycan tarixi problemlerinin cavan tedqiqatçilarinin İkinci Respublika Elmi konfransinin meruzeleri, 27-28 mart 1992-ci il, Azerbaycan tarixi problemleri uzre meruzeler mecmuesi, Baku, Azerbaycan Respublikasinin Xalq Tehsili nazirliyi, Azerbaycan

Respublikasinin Elmler Akademiyasi, M.Azizbeyov adina Azerbaycan Senaye Universiteti.

10.Bayramzade, S. (2018). *İran hakim dairelerinin azerbaycanlılara qarshi ayri-sechkilik siyaseti barede (1925-1979-cu iller)*, - "Muasir shergshunasligın aktual problemleri (Ziya Bunyadov qiraetleri)" movzusunda beynalxalq elmi konfransin (16-17 oktyabr 2017-ci il, Baku) materiallari, Baku: "Papirus NP" neshriyyati.

11.Serabi, Zeferi. (2010). *Xanevade-ye İbrahimi*. Efsane-ye yek nasl (*İbrahimi ailesi. Bir naslin efsanesi*), Almaniya: Bochum.

12."Rah-e Tude" (2013, mart 18). *Zendegi-ye moshtarak-e Anushiravan İbrahimi və Behazin dar konc-e solul-e zendan-e Evin.* Alınmışdır: http://www.rahetudeh.com/rahetude/2013/10mars/3/ebrahimi.html

13.Ибрагими, А.К. (1965). *Борьба Народной Партии Ирана (Тудэ) против реакции 1944-1946 гг.* (На примере деятельности НПИ (Т) в Меджлисе и в составе правительства), Диссертация на соискание ученой степени кандидата исторических наук, Москва (плюс к тому «Приложеня» 2 с. и «Библиография» 12 с.).

14.Алиев, С. (1979). *Антимонархическая и антиимпериалистическая революция в Иране.* журнал Народов Азии и Африки.

15.Байрамзаде, С. (1989). *К политической деятельности Азербайджанской Демократической Партии (1947-1960 гг.) - V Всесоюзная школа молодых востоковедов.* Тезисы. Т.III. Политика, идеология, международные отношения. Москва: «Наука».

16.Байрамзаде, С. (2016). *Южный Азербайджан: от «21 азер»а до «белой ревоюции» в Иране*. Баку: «Терегги».

***Assoc. Prof. Samad Bayramzadeh***

## ***The Role of Anushiravan Ibrahimi in the National-democratic Movement of South Azerbaijan***

*(abstract)*

*After Reza Khan came to the power in Iran and established an oppressive regime in 1925, a wave of political pressure against national activists and communists swept the country, their mass arrests began, and Ghani Ibrahimi was also one of the victims of this process. He was arrested among his fellow countrymen, severely tortured in prison, and eventually exiled to Nahavand for a long time - until the end of his life.*

*Gani Ibrahim's two sons and three daughters, who were born and raised in his family, were nourished by his national liberation and revolutionary spirit. The eldest son of the family, Firudin Ibrahimi, grew up as a nationalist Azerbaijani fighter and became one of the greatest members of the "21 Azer movement", during his adolescence and studying at the Faculty of Law of Tehran University. He took part in the establishment and activity of the Democratic Party of Azerbaijan, the National Assembly and the National Government with all his being, sacrificed his life and rose to the peak of martyrdom, was awarded the title of National Hero of Azerbaijan.*

*Anushiravan, the third child of the family, came to the battlefield like his father Gani and his elder brother Firudin, fought for the freedom and independence of his homeland for many years, and finally sacrificed his life like his father and brother.*

***Keywords:*** *Azerbaijan Democratic Party, Peshavari, Anushiravan Ibrahimi, Firidun Ibrahimi, Azerbaijan National Government*

***д.ф.и., доцент Самед Байрамзаде***

## ***Образ ануширавана ибрагими в национально-демократическом движении южного азербайджана***

*(резюме)*

*После того, как Реза Хан захватил власть в Иране и установил деспотический режим (1925 г.), по стране прокатилась волна политического давления на национальных активистов и коммунистов, и начались их массовые аресты, и Гани Ибрагими также стал одной из жертв этого процесса. Он был арестован среди своих соотечественников, подвергся жестоким пыт-*

*кам в тюрьме и в конце концов сослан в Нахаванд на долгое время - до конца своей жизни.*

*Два сына и три дочери Гани Ибрагими, которые родились и выросли в его семье, питались его национально-освободительным и революционным духом. Старший сын семьи, Фиридун Ибрагими, в юности и во время изучения права в Тегеранском университете вырос национально настроенным азербайджанским борцом, стал очень сильным и стойким членом движения «21 азер», всем своим существом он принимал активное участие в создании и деятельности Демократической партии Азербайджана, Национального собрания и Национального правительства, пожертвовал своей жизнью и поднялся на вершину мученичества и ему присвоено звание Национального героя Азербайджана.*

*Ануширaван, третий ребенок в семье, пришел на поле битвы, как его отец Гани и старший брат Фирудин, много лет боролся за свободу и независимость своей родины и, наконец, пожертвовал своей жизнью как его отец и брат.*

***Ключевые слова:*** *Демократическая Партия Азербайджана, Пишавари, Ануширaван Ибрагими, Фиридун Ибрагими, Национальное Правительство Азербайджана.*

*Məqalə redaksiyaya daxil olmuşdur: 28.12.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 26.01.2021*
*Çapa qəbul edilmişdir: 10.03.2021*